## Grid

⏳0.3 sec. 💾 256 MB

Əhməd mümkün qədər varlı olmağa çalışır. O böyük pul qazana bilmək üçün belə bir oyun təklif edir.

Əhməd başlanğıc olaraq matriksin $(0, 0)$ xanasında yerləşir. $A$ müsbət ədədlərdən ibarət $N \times M$ ölçülü matriksdir. O $(N-1, M-1)$ xanasına getməlidir. Bunu edərkən, hər dəfə $(x, y)$ xanasından $(x+d, y)$ və ya $(x, y+d)$ xanasına gedə bilər, hansıki $d > 0$. Hər addımdan sonra, Əhməd $|A_{x,y} - A_{x',y'}| - C$ qədər qızıl qazanacaq, hansı ki, $x', y'$ Əhmədin gedəcəyi kordinatdir, $C$ isə başlanğıcda verilmiş sabit qiymətdir. Əgər ifadə $|A_{x,y} - A_{x',y'}| - C$ mənfidirsə, Əhməd həmin qiymət qədər qızıl itirəcək.

Qeyd: Mənfi sayda qızıl ilə oyunu bitirmək mümkündür.

Əhmədə maksimum sayda qızıl ilə oyunu bitirməkdə kömək edin.

*Qeyd: Əgər $a \geq 0$ $|a| = a$ əks halda isə $|a| = -a$*

## Implementation details

Siz `max_profit` funksiyasını yazmalısınız:

```
long long max_profit(int N, int M, int C,
                     std::vector<std::vector<int>> A)
```

- $N$, $M$: Matriksin ölçüləri;
- $C$: test üçün verilmiş sabit dəyişən;
- $A$: $N \times M$ ölçülü vektorlar vektoru, iki ölçülü matriksi göstərir (sətir və sütuna görə indekslənir).

Bu funksiya hər bir test üçün bir dəfə çağırılır və Əhmədin oyunu bitirə biləcəyi maksimum qızıl sayını qaytarmalıdır.

## Məhdudiyyətlər

- $1 \leq N, M$
- $N \cdot M \leq 5 \times 10^5$
- $1 \leq A_{i,j} \leq 10^6$ (Bütün $i$ və $j$ lər üçün)
- $0 \leq C \leq 10^6$

## Alt-tapşırıqlar

| Alt-tapşırıq | Qiymətləndirmə | Tələb olunan alt-tapşırıqlar | Əlavə Məhdudiyyətlər |
|---|---|---|---|
| 0 | 0 | – | Nümunə. |
| 1 | 9 | – | $N = 1, M \le 200$ |
| 2 | 5 | – | $N = 1, A_{i,j} \le A_{i,j+1}$ |
| 3 | 8 | – | $N = 1, C = 0$ |
| 4 | 10 | 1 | $N = 1, M \le 5 \times 10^4$ |
| 5 | 7 | $1 - 4$ | $N = 1$ |
| 6 | 15 | 1 | $N, M \le 200$ |
| 7 | 9 | 2 | $A_{i,j} \le A_{i+1,j}, A_{i,j+1}$ |
| 8 | 12 | 3 | $C = 0$ |
| 9 | 12 | $0 - 1, 4, 6$ | $N \cdot M \le 5 \times 10^4$ |
| 10 | 13 | $0 - 9$ | – |

## Nümunə

Aşağıdakı testə baxaq:

```
max_profit(5, 6, 4, {{20, 24, 31, 33, 36, 40},
                      {25, 23, 25, 31, 32, 39},
                      {31, 26, 21, 24, 31, 35},
                      {32, 28, 25, 21, 26, 28},
                      {36, 35, 28, 24, 21, 27}})
```

Verilmiş nümunədə ən optimal yol budur, $(0,0) \xrightarrow{7} (0,2) \xrightarrow{2} (1,2) \xrightarrow{10} (1,5) \xrightarrow{8} (4,5)$ və qazanc belədir $7 + 2 + 10 + 8 = 27$. Funksiyanız 27 qaytarmalıdır.

```
max_profit(2, 2, 100, {{1, 2}, {3, 4}})
```

Burada funksiyanızın qaytarmalı olduğu dəyər: $-197$.

Qeyd: cavab mənfi ola bilər.

## Sample grader

İnput aşağıdakı kimidir:

- Sətir $1$: Üç tam ədəd –$N$, $M$ və $C$ - nin qiymətlər
- Sətir $2 - (N+1)$: $M$ Tam Ədədlər – $A_{i,j}$ - lərin qiymətləri.

Output aşağıdakı kimidir:

- Sətir $1$: Bir tam ədəd – funksiyanın qaytardığı dəyər.